**A Z Ə R B A Y C A N  R E S P U B L İ K A S I**
**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

№ 231 «14» Sentyabr 2022-ci il

**Binəqədi rayonu ərazisində dövlət mülkiyyətində olan torpaqlardan istifadə edilməsinin planlaşdırılması, habelə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsinə nəzarətin həyata keçirilməsi və torpaqların monitorinqinin aparılması məqsədilə Komissiyanın yaradılması haqqında**

"Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin tələbinə əsasən Binəqədi rayonu ərazisində dövlət mülkiyyətində olan torpaqlardan istifadə edilməsinin planlaşdırılması, habelə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsinə nəzarətin həyata keçirilməsi və torpaqların monitorinqinin aparılması məqsədilə Komissiyanın yaradılmasına lüzum yaranmışdır.

"Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.16.3-cü və 6.8-ci bəndlərini nəzərə alaraq,

**qərara alıram:**

1. Binəqədi rayonu ərazisində dövlət mülkiyyətində olan torpaqlardan istifadə edilməsinin planlaşdırılması, habelə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsinə nəzarətin həyata keçirilməsi və torpaqların monitorinqinin aparılması məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Məmmədov Leysan Novruz oğlu | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Azər Kərimov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Rayon təsərrüfatı |

| | |
|---|---|
| | şöbəsinin müdiri |
| İskəndər Cahangir-zadə | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Yunis Hüseynov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| Elmin Zamanov | Binəqədi rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin rəisi |
| Zaur Qafarov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının M.Ə.Rəsulzadə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Namil Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Teyyub Abdullayev | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Xocəsən qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Əsəd Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 28 may qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini |
| Qadir Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Mübariz Məmmədov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 1 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Dilbər Şükürova | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 2 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsi |
| Mürsəl Eminov | Binəqədi bələdiyyəsinin sədri |

| | |
|---|---|
| Ehtibar Cabbarov | Biləcəri bələdiyyəsininin sədri |
| Hümbət Hüseynov | M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri |
| Nigar Məmmədova | Xocəsən bələdiyyəsinin sədri |
| Mətanət Nəsibova | Binəqədi qəsəbə bələdiyyəsinin sədri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən |

2. Komissiyaya tapşırılsın ki, rayon ərazisində torpaqlardan istifadə edilməsinin planlaşdırılması məqsədilə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan təyinatı üzrə istifadə edilməsi ilə əlaqədar monitorinqin aparılmasına başlanılsın.
3. Monitorinq zamanı aşkar edilmiş qanun pozuntuları barədə Rayon İcra Hakimiyyətinə dərhal məlumatın verilməsi təmin olunsun.
4. Komissiyanın üzvlərinə tapşırılsın ki, görülmüş işlər barədə gündəlik hesabatın Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Leysan Məmmədova verilməsini təmin etsinlər.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən** **Turan Qarayeva**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN